**Anna Telman qızı VƏLİYEVA**
Azərbaycan Ordusunun Təlim Tədris Mərkəzinin Maddi Texniki Təminat Kafedrasının Hümanitar fənnlər silsiləsinin baş müəllimi, polkovnik-leytenant, Bakı, Azərbaycan
E-mail: anrusrin@gmail.com

# MÜLKİ ƏHALİNİN SİLAHLI MÜNAQİŞƏLƏR ZAMANI MÜDAFİƏSİNİN BEYNƏLXALQ HÜQUQİ ƏSASLARI

**Xülasə**

Məqalədə silahlı münaqişələr zamanı mülki əhalinin müdafiəsinin beynəlxalq hüquqi əsasları araşdırılır. Müasir dövrdə silahlı qarşıdurmaların xarakterinin dəyişməsi, döyüş əməliyyatlarının yaşayış məntəqələrində aparılması, mülki infrastrukturun hədəfə çevrilməsi və humanitar yardımın çatdırılmasında yaranan çətinliklər bu mövzunun aktuallığını artırır. Tədqiqatın əsas məqsədi beynəlxalq humanitar hüququn mülki əhalinin qorunması sahəsində müəyyən etdiyi prinsip və normaları təhlil etmək, onların tətbiqi zamanı ortaya çıxan problemləri müəyyənləşdirməkdir. Məqalədə Cenevrə Konvensiyaları, Əlavə Protokollar, beynəlxalq humanitar hüququn əsas prinsipləri, mülki şəxslərin və mülki obyektlərin müdafiəsi, humanitar yardımın təmin edilməsi, müdafiə olunan nişanlardan istifadə və pozuntulara görə məsuliyyət məsələləri nəzərdən keçirilir. Araşdırmada tarixi-hüquqi, müqayisəli-hüquqi, sistemli təhlil və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Nəticə olaraq qeyd olunur ki, beynəlxalq humanitar hüquq mülki əhalinin müdafiəsi üçün geniş normativ baza yaratsa da, bu normaların praktik tətbiqi siyasi iradə, beynəlxalq nəzarət mexanizmlərinin səmərəliliyi və münaqişə tərəflərinin hüquqi məsuliyyəti ilə sıx bağlıdır.

**Açar sözlər:** mülki əhali, silahlı münaqişə, beynəlxalq humanitar hüquq, Cenevrə Konvensiyaları, humanitar müdafiə.

**UOT:** 341.322.5
**DOI:** https://doi.org/10.54414/DJML3103

## Giriş

Silahlı münaqişələr bəşəriyyət tarixində ən ağır sosial, siyasi və humanitar nəticələr doğuran hadisələrdən biri olmuşdur. Müharibələr zamanı yalnız hərbi qüvvələr deyil, mülki əhali də ciddi təhlükələrlə üzləşir. Xüsusilə müasir dövrdə döyüş əməliyyatlarının yaşayış məntəqələrində aparılması, şəhər müharibələrinin genişlənməsi, enerji, su, səhiyyə, təhsil və nəqliyyat infrastrukturlarının zədələnməsi mülki şəxslərin təhlükəsizliyini daha da aktual problemə çevirmişdir. Bu baxımdan mülki əhalinin silahlı münaqişələr zamanı müdafiəsi beynəlxalq humanitar hüququn əsas istiqamətlərindən biri hesab olunur. Beynəlxalq humanitar hüquq silahlı münaqişələr zamanı müharibə aparan tərəflərin davranışını məhdudlaşdıran, müharibənin dağıdıcı nəticələrini azaltmağa yönələn və müharibədə birbaşa iştirak etməyən şəxslərin müdafiəsini təmin edən hüquq normaları sistemidir. Bu hüquq sahəsinin əsas məqsədi hərbi zərurətlə humanizm prinsipi arasında balans yaratmaq, mülki şəxslərin, yaralıların, xəstələrin, hərbi əsirlərin və humanitar personalın hüquqlarını qorumaqdır. Mövzunun aktuallığı ondan ibarətdir ki, beynəlxalq hüquqi sənədlərin mövcud olmasına baxmayaraq, müasir silahlı münaqişələrdə mülki əhalinin hüquqlarının pozulması halları davam edir. Mülki obyektlərin atəşə tutulması, humanitar yardımın qarşısının alınması, xəstəxana və məktəblərin zədələnməsi, məcburi köçkünlük və zorakılıq halları beynəlxalq humanitar hüququn tətbiqində ciddi problemlərin mövcud olduğunu göstərir. Tədqiqatın məqsədi mülki əhalinin silahlı münaqişələr zamanı müdafiəsinin beynəlxalq hüquqi əsaslarını araşdırmaq, bu sahədə

mövcud prinsipləri təhlil etmək və tətbiq problemlərini müəyyənləşdirməkdir. Tədqiqatın metodoloji əsasını tarixi-hüquqi, müqayisəli-hüquqi, sistemli və normativ təhlil metodları təşkil edir. Məqalənin elmi yeniliyi mülki əhalinin müdafiəsinin yalnız hüquqi normalar baxımından deyil, həm də müasir silahlı münaqişələrin yeni çağırışları fonunda araşdırılması ilə bağlıdır.

**Əsas hissə**

Beynəlxalq humanitar hüquq beynəlxalq hüququn xüsusi sahəsi olub, silahlı münaqişələr zamanı tətbiq edilən hüquq normalarını əhatə edir. Bu hüquq sahəsi bəzən "müharibə hüququ" və ya "silahlı münaqişələr hüququ" kimi də adlandırılır. Onun əsas məqsədi müharibəni tamamilə qadağan etmək deyil, müharibə zamanı insan həyatını və ləyaqətini qorumaq, döyüş əməliyyatlarının aparılmasına müəyyən hüquqi məhdudiyyətlər qoymaqdır. Beynəlxalq humanitar hüququn tarixi inkişafı XIX əsrdən etibarən daha sistemli xarakter almışdır. 1864-cü ildə qəbul edilmiş ilk Cenevrə Konvensiyası döyüş meydanında yaralı hərbçilərin vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdi. Sonrakı mərhələlərdə bu hüquqi baza genişləndirilmiş, 1949-cu il Cenevrə Konvensiyaları və 1977-ci il Əlavə Protokollar beynəlxalq humanitar hüququn əsas mənbələrinə çevrilmişdir. Mülki əhalinin müdafiəsi baxımından 1949-cu il IV Cenevrə Konvensiyası xüsusi əhəmiyyət daşıyır. Bu Konvensiya müharibə dövründə mülki şəxslərin müdafiəsinə həsr olunmuş əsas beynəlxalq sənəddir. Konvensiyada işğal olunmuş ərazilərdə yaşayan əhalinin hüquqları, mülki şəxslərlə rəftar qaydaları, deportasiya, girov götürmə, kollektiv cəzalandırma və digər qadağan olunmuş əməllərlə bağlı normalar müəyyən edilmişdir. Beynəlxalq humanitar hüququn mülki əhalinin müdafiəsində rolu bir neçə istiqamətdə özünü göstərir. Birincisi, bu hüquq münaqişə tərəflərinin mülki şəxslərlə döyüşçüləri fərqləndirməsini tələb edir. İkincisi, mülki obyektlərin hərbi hədəf kimi seçilməsini qadağan edir. Üçüncüsü, humanitar yardımın göstərilməsi və yaralıların qorunması üçün hüquqi əsas yaradır. Dördüncüsü, beynəlxalq humanitar hüquq pozuntularına görə fərdi cinayət məsuliyyəti mexanizmlərini müəyyən edir [1].

Mülki əhalinin silahlı münaqişələr zamanı müdafiəsinin hüquqi əsasları bir sıra beynəlxalq sənədlərdə təsbit olunmuşdur. Bu sənədlər arasında 1949-cu il Cenevrə Konvensiyaları, 1977-ci il Əlavə Protokollar, 1954-cü il Haaqa Konvensiyası, BMT Nizamnaməsi, İnsan Hüquqları üzrə Ümumi Bəyannamə, Roma Statutu və beynəlxalq humanitar hüququn adət normaları mühüm yer tutur. 1949-cu il Cenevrə Konvensiyaları dörd əsas sənəddən ibarətdir. Birinci Konvensiya quruda döyüşən silahlı qüvvələrin yaralı və xəstələrinin vəziyyətinin yaxşılaşdırılmasına, İkinci Konvensiya dənizdə silahlı qüvvələrin yaralı, xəstə və gəmi qəzasına uğramış üzvlərinin müdafiəsinə, Üçüncü Konvensiya hərbi əsirlərlə rəftara, Dördüncü Konvensiya isə müharibə dövründə mülki şəxslərin müdafiəsinə həsr edilmişdir. Dördüncü Cenevrə Konvensiyası mülki əhalinin qorunması sahəsində xüsusi əhəmiyyətə malikdir. Bu sənəd mülki şəxslərə qarşı zorakılığı, işgəncəni, qeyri-insani rəftarı, girov götürməni, deportasiyanı və kollektiv cəzalandırmanı qadağan edir. Konvensiya həmçinin işğal olunmuş ərazilərdə mülki əhalinin hüquqlarının qorunması üçün dövlətlərin öhdəliklərini müəyyən edir. 1977-ci il I Əlavə Protokol beynəlxalq silahlı münaqişələrdə mülki əhalinin müdafiəsini daha da genişləndirmişdir. Bu Protokolda mülki əhali ilə döyüşçülər arasında fərq qoyulması, mülki obyektlərin qorunması, hücum zamanı ehtiyat tədbirlərinin görülməsi, mütənasiblik prinsipinə əməl olunması kimi mühüm qaydalar öz əksini tapmışdır. II Əlavə Protokol isə qeyri-beynəlxalq silahlı münaqişələr zamanı mülki əhalinin müdafiəsinə dair normaları əhatə edir. Roma Statutu beynəlxalq cinayət hüququ baxımından xüsusi əhəmiyyət daşıyır. Bu sənəd müharibə cinayətləri, insanlığa qarşı cinayətlər və soyqırımı cinayətlərinə görə fərdi cinayət məsuliyyətini müəyyən edir. Mülki əhaliyə qarşı qəsdən hücumlar, humanitar yardım işçilərinə hücum, xəstəxanaların və dini obyektlərin hədəfə alınması Roma Statutuna

görə müharibə cinayəti kimi qiymətləndirilə bilər. Bundan əlavə, beynəlxalq humanitar hüququn adət normaları da mülki əhalinin müdafiəsində mühüm rol oynayır. Adət normaları yazılı müqavilələrə qoşulub-qoşulmamasından asılı olmayaraq, dövlətlərin və münaqişə tərəflərinin əməl etməli olduqları ümumi hüquqi davranış qaydalarını əhatə edir [2].

Beynəlxalq humanitar hüquqa görə mülki şəxs silahlı qüvvələrin üzvü olmayan və döyüş əməliyyatlarında birbaşa iştirak etməyən şəxsdir. Mülki şəxslər müharibə zamanı ümumi müdafiədən istifadə edirlər. Onlar yalnız döyüş əməliyyatlarında birbaşa iştirak etdikləri müddətdə bu müdafiəni itirə bilərlər. Bu qayda mülki şəxslərin hüquqi statusunun müəyyən edilməsində mühüm əhəmiyyət daşıyır. Mülki obyektlər isə hərbi obyekt hesab olunmayan bütün obyektlərdir. Yaşayış evləri, məktəblər, xəstəxanalar, ibadət yerləri, su təchizatı sistemləri, elektrik stansiyaları, ərzaq anbarları və mədəniyyət abidələri mülki obyektlər sırasına daxildir. Bu obyektlərə qarşı qəsdən hücum etmək beynəlxalq humanitar hüquqa ziddir. Xüsusilə xəstəxanalar, tibb müəssisələri və humanitar yardım obyektləri xüsusi müdafiəyə malikdir. Onların üzərində Qızıl Xaç, Qızıl Aypara və ya Qızıl Kristal emblemlərinin yerləşdirilməsi həmin obyektlərin humanitar və tibbi məqsəd daşıdığını göstərir. Bu emblemlərdən sui-istifadə isə beynəlxalq humanitar hüququn ciddi pozuntusudur. Çünki bu nişanlar humanitar personalın və tibbi obyektlərin təhlükəsizliyini təmin etmək üçün nəzərdə tutulmuşdur. Silahlı münaqişələr zamanı mülki əhalinin müdafiəsi yalnız hücumlardan qorunma ilə məhdudlaşmır. Eyni zamanda, onların ərzaq, su, tibbi yardım, sığınacaq və təhlükəsiz yaşayış şəraitinə çıxışı təmin edilməlidir. Münaqişə tərəfləri aclıqdan müharibə metodu kimi istifadə etməməli, humanitar yardımın çatdırılmasına əsassız maneələr yaratmamalıdır. Mülki əhalinin müdafiəsində xüsusi kateqoriyalara aid şəxslər də nəzərə alınmalıdır. Uşaqlar, qadınlar, yaşlılar, əlilliyi olan şəxslər, xəstələr və hamilə qadınlar əlavə müdafiəyə ehtiyac duyan qruplar hesab olunur. Beynəlxalq hüquq bu şəxslərin ehtiyaclarının xüsusi qaydada nəzərə alınmasını tələb edir [3].

Silahlı münaqişələr zamanı humanitar yardım mülki əhalinin sağ qalması üçün həyati əhəmiyyət daşıyır. Humanitar yardım ərzaq, su, dərman, tibbi xidmət, sığınacaq, geyim, gigiyena vasitələri və psixoloji dəstək kimi zəruri ehtiyacları əhatə edir. Beynəlxalq humanitar hüquqa görə, münaqişə tərəfləri ehtiyacı olan mülki əhaliyə humanitar yardım göstərilməsinə imkan yaratmalıdır.Humanitar təşkilatlar bu sahədə mühüm rol oynayırlar. Beynəlxalq Qızıl Xaç Komitəsi, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası, milli Qızıl Xaç və Qızıl Aypara cəmiyyətləri müharibə və fövqəladə hallar zamanı insanlara yardım göstərən əsas qurumlardandır. Bu təşkilatların fəaliyyəti humanizm, neytrallıq, qərəzsizlik və müstəqillik prinsiplərinə əsaslanır. Humanitar təşkilatların neytrallığı onların münaqişə tərəflərindən heç birinin siyasi və ya hərbi mövqeyini dəstəkləməməsi deməkdir [4]. Qərəzsizlik prinsipi isə yardımın yalnız ehtiyaca əsasən göstərilməsini nəzərdə tutur. Yəni yardım alan şəxsin milliyyəti, dini, siyasi baxışı və ya sosial mənsubiyyəti əsas götürülməməlidir.Humanitar yardımın çatdırılması zamanı əsas problemlərdən biri təhlükəsizlik məsələsidir. Müasir münaqişələrdə humanitar personalın hədəfə alınması, yardım karvanlarının qarşısının alınması, tibb müəssisələrinin atəşə tutulması ciddi narahatlıq doğurur. Bu hallar beynəlxalq humanitar hüququn pozulması olmaqla yanaşı, mülki əhalinin həyatını daha da təhlükəyə atır. Azərbaycan kontekstində Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti humanitar təşkilatların milli səviyyədə əhəmiyyətini göstərən nümunələrdən biridir. Bu cəmiyyət müharibə, təbii fəlakətlər və sosial böhranlar zamanı yardım göstərilməsi, əhalinin maarifləndirilməsi, ilk tibbi yardımın təbliği və humanitar dəyərlərin yayılması sahəsində mühüm fəaliyyət həyata keçirir [5].

Beynəlxalq humanitar hüquq mülki əhalinin müdafiəsi üçün geniş hüquqi baza yaratsa da, onun tətbiqində ciddi problemlər qalmaqdadır. Bu problemlər həm hüquqi, həm siyasi, həm də praktiki xarakter daşıyır. Birinci

problem münaqişə tərəflərinin beynəlxalq humanitar hüquq normalarına əməl etməməsidir. Bəzi hallarda tərəflər hərbi üstünlük əldə etmək məqsədilə mülki obyektləri hədəfə alır, mülki əhalini qorxu altında saxlayır və humanitar yardımı siyasi təzyiq vasitəsinə çevirirlər. Bu isə hüquq normalarının kağız üzərində qalmasına səbəb olur. İkinci problem qeyri-dövlət silahlı qruplarının fəaliyyəti ilə bağlıdır. Müasir münaqişələrdə yalnız dövlət orduları deyil, müxtəlif silahlı qruplar da iştirak edir. Bu qrupların beynəlxalq hüquq normalarına əməl etməsi çox zaman çətin olur. Onların hüquqi statusunun qeyri-müəyyənliyi, mərkəzləşdirilmiş komandanlıq sisteminin zəifliyi və məsuliyyət mexanizmlərinin məhdudluğu mülki əhalinin müdafiəsini çətinləşdirir. Üçüncü problem şəhər müharibələri ilə əlaqədardır. Döyüşlərin sıx məskunlaşmış ərazilərdə aparılması mülki itkilərin artmasına səbəb olur. Hərbi obyektlərin yaşayış məntəqələrində yerləşdirilməsi, ağır silahlardan istifadə və infrastrukturun dağıdılması mülki əhalinin təhlükəsizliyini ciddi şəkildə pozur. Dördüncü problem beynəlxalq məsuliyyət mexanizmlərinin səmərəsizliyi ilə bağlıdır [6]. Müharibə cinayətlərinə görə məsuliyyət nəzərdə tutulsa da, praktikada cinayətkarların cəzalandırılması hər zaman mümkün olmur. Siyasi maraqlar, sübutların toplanmasında çətinliklər, beynəlxalq məhkəmələrin yurisdiksiya problemləri və dövlətlərin əməkdaşlıq etməməsi məsuliyyət mexanizmlərinin effektivliyini azaldır. Beşinci problem humanitar yardımın siyasiləşdirilməsidir. Bəzi hallarda humanitar yardımın çatdırılması siyasi şərtlərlə əlaqələndirilir və bu, ehtiyacı olan insanların vəziyyətini ağırlaşdırır. Halbuki humanitar yardım qərəzsiz və ehtiyaca əsaslanan prinsip üzrə həyata keçirilməlidir. Bu problemlərin aradan qaldırılması üçün beynəlxalq hüquqi nəzarət mexanizmləri gücləndirilməli, humanitar hüquq üzrə maarifləndirmə artırılmalı, dövlətlər və qeyri-dövlət aktorları beynəlxalq humanitar hüquq normalarına əməl etməyə məcbur edilməlidir [7].

Silahlı münaqişələr zamanı mülki əhaliyə qarşı törədilən ağır pozuntular beynəlxalq hüquqi məsuliyyət yaradır. Bu məsuliyyət həm dövlətlərin, həm də fərdlərin məsuliyyəti formasında ortaya çıxa bilər. Dövlətlər beynəlxalq öhdəliklərini pozduqda beynəlxalq məsuliyyət daşıyırlar. Fərdlər isə müharibə cinayətləri, insanlığa qarşı cinayətlər və soyqırımı kimi əməllərə görə cinayət məsuliyyətinə cəlb oluna bilərlər. Mülki əhaliyə qəsdən hücum etmək, mülki obyektləri hədəfə almaq, humanitar yardım personalına hücum etmək, əsirlərə işgəncə vermək, girov götürmək, deportasiya həyata keçirmək, aclıqdan müharibə metodu kimi istifadə etmək və müdafiə olunan emblemlərdən sui-istifadə etmək beynəlxalq humanitar hüququn ciddi pozuntuları hesab olunur. Roma Statutu bu cür əməllərin bir çoxunu müharibə cinayəti kimi müəyyən edir. Beynəlxalq Cinayət Məhkəməsi bu cinayətlərə görə fərdi məsuliyyət mexanizmi yaradır. Lakin məhkəmənin səlahiyyət dairəsi bütün dövlətləri avtomatik əhatə etmir [8]. Bu da beynəlxalq cinayət ədalətinin tətbiqində müəyyən məhdudiyyətlər yaradır. Beynəlxalq humanitar hüququn səmərəli tətbiqi üçün yalnız cəza mexanizmləri deyil, həm də qabaqlayıcı tədbirlər vacibdir. Silahlı qüvvələrə humanitar hüquq üzrə təlimlərin keçirilməsi, müharibə qaydalarının hərbi nizamnamələrə daxil edilməsi, komandir məsuliyyətinin gücləndirilməsi və humanitar hüquq pozuntularının sənədləşdirilməsi bu sahədə mühüm rol oynayır.

## Nəticə

Aparılan təhlil göstərir ki, mülki əhalinin silahlı münaqişələr zamanı müdafiəsi beynəlxalq humanitar hüququn ən mühüm istiqamətlərindən biridir. Cenevrə Konvensiyaları, Əlavə Protokollar, Roma Statutu və beynəlxalq adət hüququ mülki şəxslərin və mülki obyektlərin qorunması üçün geniş hüquqi baza yaradır. Bu normaların əsas məqsədi müharibənin dağıdıcı təsirlərini məhdudlaşdırmaq, insan həyatını və ləyaqətini qorumaqdır.

Mülki əhalinin müdafiəsi fərqləndirmə, mütənasiblik, humanizm, hərbi zərurət və ehtiyat tədbirləri prinsipləri əsasında həyata keçirilir. Bu prinsiplər münaqişə tərəflərinin davranışını hüquqi çərçivəyə salır və mülki

şəxslərin hədəfə alınmasını qadağan edir. Bununla yanaşı, humanitar yardımın təmin edilməsi, tibb müəssisələrinin qorunması və humanitar təşkilatların təhlükəsiz fəaliyyəti də mülki əhalinin müdafiəsinin ayrılmaz hissəsidir.

Lakin beynəlxalq humanitar hüququn mövcudluğu onun avtomatik şəkildə tətbiq olunması demək deyildir. Müasir silahlı münaqişələrdə mülki əhalinin hüquqlarının pozulması, şəhər müharibələrinin genişlən-məsi, qeyri-dövlət silahlı qruplarının iştirakı, humanitar yardımın əngəllənməsi və məsuliy-yət mexanizmlərinin zəifliyi ciddi problemlər yaradır. Bu səbəbdən mülki əhalinin müdafiəsinin gücləndirilməsi üçün beynəlxalq nəzarət mexanizmləri təkmilləşdirilməli, humanitar hüquq üzrə maarifləndirmə artırılmalı, pozuntulara görə cəzasızlıq aradan qaldırılmalı və humanitar təşkilatların fəaliy-yəti daha effektiv şəkildə dəstəklənməlidir. Yalnız bu halda beynəlxalq humanitar hüququn əsas məqsədi olan müharibə şəraitində insan həyatının və ləyaqətinin qorunması real şəkildə təmin edilə bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında IV Cenevrə Konvensiyası. 1949.
2. Cenevrə Konvensiyalarına I Əlavə Protokol. Beynəlxalq silahlı münaqişələrin qurbanlarının müdafiəsi haqqında. 1977.
3. Cenevrə Konvensiyalarına II Əlavə Protokol. Qeyri-beynəlxalq silahlı münaqişələrin qurbanlarının müdafiəsi haqqında. 1977.
4. Rome Statute of the International Criminal Court. Rome, 1998.
5. Henckaerts J.M., Doswald-Beck L. Customary International Humanitarian Law. Cambridge: Cambridge University Press, 2005, 690 p.
6. Sassòli M. International Humanitarian Law: Rules, Controversies, and Solutions to Problems Arising in Warfare. Cheltenham: Edward Elgar Publishing, 2019, 720 p.
7. Dinstein Y. The Conduct of Hostilities under the Law of International Armed Conflict. Cambridge: Cambridge University Press, 2016, 390 p.
8. Мелцер Н. Международное гуманитарное право: общий курс. Женева: Международный Комитет Красного Креста, 2016, 419 с

**Anna Telman VALIYEVA**
Senior Lecturer of the Humanities Cycle of the Department of Material and Technical Support, Training and Education Center of the Azerbaijan Army, Lieutenant Colonel, Baku, Azerbaijan

## INTERNATIONAL LEGAL BASIS OF PROTECTION OF CIVILIAN POPULATION DURING ARMED CONFLICT

**Summary**

The article examines the international legal basis of protection of civilian population during armed conflicts. The changing nature of armed conflicts in modern times, the conduct of combat operations in populated areas, the targeting of civilian infrastructure and the difficulties arising in the delivery of humanitarian aid increase the relevance of this topic. The main purpose of the study is to analyze the principles and norms established by international humanitarian law in the field of protection of civilian population, to identify the problems arising during their application. The article considers the Geneva Conventions, Additional Protocols, the basic principles of international

humanitarian law, the protection of civilians and civilian objects, the provision of humanitarian aid, the use of protected signs and liability for violations. The study used historical-legal, comparative-legal, systematic analysis and generalization methods. In conclusion, it is noted that although international humanitarian law creates a broad normative framework for the protection of the civilian population, the practical application of these norms is closely related to political will, the effectiveness of international control mechanisms and the legal responsibility of the parties to the conflict.

**Keywords:** civilian population, armed conflict, international humanitarian law, Geneva Conventions, humanitarian protection.

**Анна Тельман ВАЛИЕВА**

Старший преподаватель цикла гуманитарных дисциплин кафедры материально-технического обеспечения Учебно-тренировочного центра Азербайджанской армии, подполковник, Баку, Азербайджан

## МЕЖДУНАРОДНО-ПРАВОВАЯ ОСНОВА ЗАЩИТЫ ГРАЖДАНСКОГО НАСЕЛЕНИЯ ВО ВРЕМЯ ВООРУЖЕННЫХ КОНФЛИКТОВ

### Резюме

В статье рассматривается международно-правовая основа защиты гражданского населения во время вооруженных конфликтов. Актуальность данной темы повышается с изменением характера вооруженных конфликтов в современную эпоху, ведением боевых действий в населенных пунктах, обстрелами гражданской инфраструктуры и трудностями, возникающими при доставке гуманитарной помощи. Основная цель исследования – анализ принципов и норм, установленных международным гуманитарным правом в области защиты гражданского населения, выявление проблем, возникающих при их применении. В статье рассматриваются Женевские конвенции, Дополнительные протоколы, основные принципы международного гуманитарного права, защита гражданского населения и гражданских объектов, предоставление гуманитарной помощи, использование охраняемых знаков и ответственность за нарушения. В исследовании использованы историко-правовой, сравнительно-правовой, систематический анализ и методы обобщения. В заключение следует отметить, что, хотя международное гуманитарное право создает широкую нормативную базу для защиты гражданского населения, практическое применение этих норм тесно связано с политической волей, эффективностью международных механизмов контроля и юридической ответственностью сторон конфликта.

**Ключевые слова:** гражданское население, вооруженный конфликт, международное гуманитарное право, Женевские конвенции, гуманитарная защита.

**Daxil olub:** 07.07.2026